***UOT-811.11-112***
***Səhifə: 119-124***
*https://doi.org/10.59849/2663-8967.2026.1.119*

***Nərgiz Musayeva***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***

# EKOLİNQVİSTİKAYA AİD NƏZƏRİ BAXIŞLAR

## XÜLASƏ

Məqalədə ekolinqvistika adlanan ən yeni dilçilik paradiqmasının linqvistik mahiyyətinə həsr olunan konsepsiyalardan, nəzəri baxışlardan bəhs edilir. Burada Eynar İnqvald Hayqenin, Maykl Hallideyin, Arran Stibbenin, Edvard Sepirin ekolinqvistika ilə bağlı nəzəri-metodoloji fikirləri analiz olunur. Bu fikirlərdən məlum olur ki, ekoloji reallıqların koqnitiv strukturlarının xüsusiyyətləri və onların verbal ifadə vasitələri, metaforik təqdimetmə spesifikası müəyyənləşdirilməmişdir; terminologiya sisteminin əsas vahidlərinin semantik-koqnitiv təsviri, onların dil vasitəsilə kateqoriyalaşdırılmasında iştirakı və digər məsələlər üzrə də araşdırmalar mövcud deyil. Mövcud ekoloji reallıqlar ekoloji mənzərənin sistemyaradan tərkib hissələri kimi kompleks və çoxaspektli analizə cəlb olunur və müasir koqnitiv dilçilik, ekolinqvistika, diskurs nəzəriyyəsi və digər istiqamətlər baxımından tədqiq edilir. Bu sahənin gələcəkdə inkişaf etdirilməsi yeni elmi paradiqmaların təşəkkülünə yol açır. Müasir linqvistik tədqiqatların hazırkı vəziyyətinin təhlili göstərmişdir ki, onun əsas xüsusiyyəti fənlərarası xarakter daşıması və biliklərin əlaqəli sahələri ilə sıx əməkdaşlıq etməsidir. Müasir elmi araşdırmaların istiqamətinin dəyişməsi yeni elmi sahənin ekolinqvistikanın yaranmasına səbəb olmuşdur. Bu sahənin əsas məqsədi təbiət və dilin mövcudluğunun harmoniyalaşdırılması, balanslaşdırılması ekoloji şüurun formalaşdırılmasıdır.

***Açar sözlər:*** *ekolinqvistika, dilçilik, nəzəri baxış, termin, ekologiya, yeni paradiqma.*

**Giriş:** Dilçiliyin yeni sahələrindən biri olan ekolinqvistika ekologiya, biologiya və dilçilik (linqvistika) elmlərinin inteqrasiyasına əsaslanır. Belə ki, bu dilçilik sahəsində həm linqvistikanın, həm də ekologiyanın qanunları və konsepsiyaları tətbiq olunur. Bu dilçilik sahəsi yarandığı ilk illərdə daha çox dilin sosiolinqvistik cəhətdən ekologiya kimi yaşadığı problemləri, yəni dil əlaqələrini, dillərin bir-birinə təsiri nəticəsində yaranmış dil pozuntularını araşdırırdı. Sonradan isə ekoloji mətnlər, ekoloji diskurs bu elmin əsas tədqiq sahələrindən birinə çevrildi. Təbiət və insan münasibətləri də ekolinqvistikanın tədqiq sahələrinə aiddir. Əslində, dilçiliyin bu yeni sahəsi dilə bioloji orqanizm kimi baxılması səbəbindən yaranmışdır.

**1.Eynar İnqvald Hayqenin ekolinqvistika haqqında görüşləri.**

Eynar İnqvald Hayqen 1972-ci ildə yazdığı "Dilin ekologiyası" (The Ekolocy of Language) əsərində ekolinqvistikanın ilkin nəzəri əsaslarından və metodologiyasından bəhs etmişdir [4, s.325]. Eynar İnqvald Hayqen norveç mənşəli Amerika dilçisidir və daha çox sosiolinqvistik konsepsiyaları ilə tanınmışdır. E.İ.Hayqen bu monoqrafiyada dilin ekologiyası problemini Skandinav mühacirlərinin Amerikada yaşadığı zaman onların dillərinə ingilis dilinin təsiri aspektindən şərh etmişdir [4, s.37-59]. O, bu termini daha çox psixolinqvistik və sosiolinqvistik aspektlərdən işlətmişdir. Ancaq bu əsərdə sosiolinqvistik meyil daha güclüdür.

E.İ.Hayqen "Dilin ekologiya" adlı monoqrafiyasında dil və immiqrasiya, mədəni artifaktlar, ikidillilik (bilinqvizm), dilçilik və dil planlaşdırılması, dialekt, dil və millət, milli və beynəlxalq dillər problemlərinə toxunmuşdur [4, s.1-255]. Onun linqvistika tarixində rolu ondan ibarətdir ki, E.İ.Hayqen ekologiya ilə bağlı terminləri dilçiliyə gətirərək multidissiplinar elm sahəsi yaratmağa nail olmuşdur. E.İ.Hayqen dilin çirklənməsinə ekologiyanın çirklənməsi kimi yanaşırdı. Bir sözlə, o, ekoloji problemlər kimi dilin yad təsirlərə məruz qalmasını sosiolinqvistik və psixolinqvistik səbəblərlə yanaşı, ekologiyanın qanunları ilə izah edilməsinə çalışırdı. Məhz bu zərurətdən *dilin ekologiyası* anlayışı və termini yaranmış oldu. Bir sözlə, E.İ.Hayqen dilçiliklə

ekologiyanın kombinasiyasından yeni bir elm sahəsi yaratmışdır. Ümumiyyətlə, E.İ.Hayqenin dilçilik baxışları bir neçə istiqamətdə olmuşdur. O, ilk növbədə, ikidillilik problemini araşdırmışdır və miqrantların (mühacirlərin) dili ilə yerli dillərin çarpazlaşmasının dil əlaqələrinin mühüm elementi kimi səciyyələndirmişdir. Onun linqvistik araşdırmalarında dil planlaşdırılması, Skandinaviya dillərinin quruluşu və tarixi, dil ekologiyası problemləri öyrənilmişdir. E.İ.Hayqenin konsepsiyalarının dilçilik tarixində mühüm əhəmiyyəti ondan ibarətdir ki, o, ilk dəfə olaraq kompleks şəkildə dil və ətraf mühit məsələsini aktuallaşdırdı və bu problemi ekologiya kontekstindən araşdırdı. Beləliklə də, o, dünya dilçiliyində ən innovativ dilçilik paradiqmasının əsasını qoymuş oldu.

O, dillərin interferensiyası problemini şərh edərək bu nəticəyə gəldi ki, dillərin müstəqil şəkildə yaşamı üçün ətraf mühit amili çox mühümdür. E.İ.Hayqen ekstralinqvistik faktorların dildə çox böyük izlər buraxdığını xüsusi vurğulayırdı. E.İ.Hayqen ekolinqvistika terminini multidissiplinar məfhum kimi işlətmişdir. O, dillərin bir-birinə təsiri nəticəsidə yaranan problemləri ekoloji anlayışlar sistemi ilə müqayisə etmiş və həmin problemləri analoji proseslər kimi şərh etmişdir. Məhz o, dilə ilk dəfə ekologiya prinsiplərindən yanaşan dilçi olmuşdur. Onun nəzəri konsepsiyasının əsasında bilinqivizm, yəni ikidillilik məsələsi dayanır. E.İ.Hayqenin fikrincə, dilin ekologiyası bir neçə aspekti ehtiva edir. Bunlardan birincisi, dilin təkamülü və tipoloji inkişafı məsələsidir. Digər bir aspekt isə, ekolinqvistik analizdir. Başqa bir aspekt isə dilin inkişafında sosiolinqvistik amillərin nəzərə alınmasıdır. Yəni bu üç problem dilin ekologiyasını əhatə edərək sistem yaradır. Burada dil planlaması məsələsi də çox önəmlidir. Eyni zamanda dilin ekologiyası məsələsinin şərhində dil siyasəti də mütləq nəzərə alınmalıdır .

E.İ.Hayqenin araşdırmaları ekolinqvistikaya ilk istiqamət verdi. Sonralar onun işlətdiyi ekolinqvistika anlayışı daha geniş anlam qazanmağa başladı. Yəni bu termin yalnız dil müxtəlifliyini, dillərin bir-birinə təsirini deyil, eyni zamanda dillə təbiətin təması, dilin təbiətin qorunmasındakı rolu, ekoloji diskursun linqvistik mahiyyəti məsələlərini də əhatə etmiş oldu. Beləliklə də, ekolinqvistika anlayışı daha geniş bir məfhuma çevrildi.

Onun araşdırmalarında müstəmləkə xalqların dillərinin bir-birinə təsiri, dilə ekoloji cəhətdən yanaşma prinsipləri mühüm amil kimi diqqəti cəlb edir. E.İ.Hayqen dilə bioloji modellərin tətbiqini vacib amil kimi dəyərləndirir. Onun bu yanaşması çox maraqlıdır. O yazır ki, hazırda bioloji model dilçilər arasında geniş qəbul edilmir. Bu model yalnız metaforik xarakter daşıyırdı və dillə bioloji orqanizmlər arasında müəyyən paralellər aparmağa imkan verirdi, lakin bu yanaşmanı həddindən artıq ümumiləşdirmək mümkün deyildi. Sözügedən model əsasında dil haqqında irəli sürülən nəticələr açıq-aşkar yanlışdır: dil nəfəs almır, onu istifadə edən subyektlərdən kənarda müstəqil mövcudluğu yoxdur və bioloji orqanizmlərə xas olan konkret maddi xüsusiyyətlərə malik deyil [6, s.58]. Onun fikrincə, burada dilin ekoloji problemlərinin bütün tərəflərini ətraflı izah etmək mümkün deyil. Ona görə də dillərin öyrənilməsi və istifadəsi ilə bağlı bəzi ümumi prinsipləri qəbul etməliyik. Uşaq həyatının ilk illərində hansı dilə və ya dil variantına məruz qalırsa, onu mənimsəyir. Hər bir uşağın qazandığı dil biliyi digər uşaqlardan fərqlidir. Uşağın passiv dil biliyi aktiv dil biliyindən daha genişdir, yəni özü deyə bilmədiyi söz və ifadələri başa düşə bilir. Yaş artdıqca böyüklərin yeni dilləri öyrənmək qabiliyyəti və ya istəyi müəyyən qədər azalır. Bundan başqa, cəmiyyətlər dillərin öyrənilməsini müxtəlif yollarla məhdudlaşdırır və nəzəri cəhətdən sonsuz ola bilən dil əlaqələrini praktik baxımdan minimum səviyyəyə endirir [6, s.60].

E.İ.Hayqen qeyd edir ki, dil ekologiyasının təhlili yalnız hər bir dilin sosial və psixoloji vəziyyətini təsvir etməklə kifayətlənmir, həm də bu vəziyyətin dilin özünə necə təsir etdiyini araşdırır. Əvvəlcə hazırda hansı dillərin təsir mənbəyi olduğunu göstərmək lazımdır. Bu təsir dillərdə yaranan yeni sözlərdə və köhnə sözlərin əvəzlənməsində aydın görünür. Adətən, bunu müəyyənləşdirmək çətin olmur, çünki bu cür yeniliklər tez-tez müzakirə və mübahisə mövzusuna çevrilir. Daha geniş izah üçün dilin lüğət tərkibinə baxmaq lazımdır. Məsələn, ingilis dilində iki əsas qat var: german mənşəli sözlər və qeyri-german, əsasən Aralıq dənizi mənşəli (fransız, latın, yunan, italyan) sözlər. Tarix boyu müəyyən dövrlərdə nüfuzlu insanlar başqa dilləri öyrənmiş və həmin dilləri nümunə götürərək öz dillərini zənginləşdirmişlər (bəzilərinə görə isə, bu, dili

korlamışdır). Eyni proses fin və macar dillərində də müşahidə olunur: bu dillər Qərbi Avropa qonşularından sözlər götürərək hind-Avropa dillərinin təsiri altına düşmüşdür [6, s.63]. Deməli, E.İ.Hayqen ekolinqvistikaya daha çox dil əlaqələrini, dillərin bir-birinə təsiretmə mexanizmini öyrənən sahə kimi yanaşmışdır.

E.İ.Hayqen dil ekologiyasını düzgün olaraq multidissiplinar bir elm kimi səciyyələndirir. O qeyd edir ki, dil ekologiyası insan ekologiyası ilə bağlı tədqiqatların təbii davamıdır və bu mövzu uzun illərdir psixolinqvistika, etnolinqvistika, linqvistik antropologiya, sosiolinqvistika və dil sosiologiyası sahələrində öyrənilir [4, s.327]. Göründüyü kimi, E.İ. Hayqen dil ekologiyasına kompleks şəkildə yanaşır. Yekun olaraq bu nəticəyə gəlirik ki, E.İ.Hayqenin nəzəri konsepsiyaları sonradan bu sahə ilə bağlı yaranan fikirlər üçün ilkin zəmin yaratmış oldu. O, dil siyasətinin və dil planlamasının düzgün təşkilinin ekolinqvistika üçün mühüm əhəmiyyət kəsb etdiyini təsbit etmişdir. Onun fikirləri sübut edir ki, dilə hər hansı bir müdaxilə dil sistemində ekoloji tarazlığı poza bilər. O, düzgün olaraq dilə böyük bir ekosistem kimi yanaşırdı. Dilin ekosisteminin korlanması onun məhvinə gətirib çıxarda bilər. E.İ.Hayqen bu nəticəyə gəlir ki, dil qapalı deyil, açıq sistemdir. Buna görə də dilə müdaxilə hər zaman təhlükəli ola bilər. Bu amili də dil siyasətində nəzərə almaq lazımdır. Başqa bir tərəfdən, dilə analoji olaraq ekosistem kimi yanaşan E.İ.Hayqen bu qənaətə gəlir ki, ekosistemlər yox olduğu kimi, dillər də canlıdır, onların da yoxolma təhlükəsi var.

**2.Arran Stibbenin ekolinqvistik konsepsiyası.**

Dünya dilçiliyində ekolinqvistika ilə bağlı nəzəri müddəaların müəlliflərindən biri də Arran Stibbedir. Arran Stibbenin digər ekolinqvistlərdən əsas fərqi odur ki, onun baxışlarında daha çox dilin təbiətə münasibəti necə qurulmalıdır məsələsinə aydınlıq gətirilir. 2015-ci ildə Arran Stibbe tərəfindən yazılan "Ekolinqvistika: Dil, ekologiya və biz yaşadığımız hekayələr" adlı monoqrafiyada dilin insanlarda təbiətə münasibət haqqında təfəkkürü necə formalaşdırması təhlil olunur. O, həmin əsərində göstərir ki, dil həm də ekosistemlərə münasibət ifadə edir. Ekolinqvistika ilə bağlı araşdırmaların ümumi nəticəsi bundan ibarətdir ki, məhz dil cəmiyyətdə ekoloji davranışların təşəkkülünə mühüm təsir edə bilir. A.Stibbe ekomədəniyyəti və ekoetikanı təbliğ edirdi. Əslində, bu konsepsiya çox düzgündür. Çünki bədii diskursda, media diskursunda, həmçinin akademik diskursda təbiəti qorumaq haqqında olan çağırışlar, ekoloji məzmunlu təşviqlər istər-istəməz insanların şüurunda ekologiyaya həssas yanaşmaq hissini formalaşdırır, sivilizasiyanı gələcək təhlükələrdən qoruyur. Yəni insanlarda ekoloji şüurun formalaşdırılması, təbiətin qorunması konsepsiyası məhz linqvistik vasitələrlə reallaşdırılır.

Arran Stibbe bu qənaətə gəlir ki, bu cür ekodilçilik təhlilinin nəticələri, təbii ki, istifadə olunan ekofəlsəfənin etibarlılığından, tətbiq edilən dilçilik alətlərinin uyğunluğundan və məlumatların təmsilediciliyindən asılı olacaqdır. Bu yanaşmanın insanların və digər növlərin gələcəkdə sağ qalması və rifahı üçün zəruri olan sosial dəyişikliklərə töhfə vermək qabiliyyəti barədə qəti iddialar irəli sürmək mümkün deyil. Lakin iddia edilə bilən odur ki, ekodilçiliyin bu forması ən azı insanları həyatı dəstəkləyən daha geniş sistemlərin daxilində ekoloji baxımdan yerləşmiş varlıqlar kimi nəzərə alır və məhz bu səbəbdən, bu yerləşməni nəzərə almayan təhlillərlə müqayisədə ekoloji məsələləri daha yaxşı şəkildə araşdırmaq imkanına malikdir [5, s.184]. Bir sözlə, Arran Stibbe ekolinqvistikaya ekofəlsəfə aspektindən yanaşır.

**3.Edvard Sepirin ekolinqvistik mahiyyətli mülahizələri.**

Edvard Sepir "Dil və mühit" adlı yazısında dil daşıyıcılarının leksik fonduna onları əhatə edən təbii mühitin necə təsir etməsi məsələsinə aydınlıq gətirmişdir. Belə ki, E.Sepir dil və mühit probleminə praqmatik şəkildə yanaşır və qeyd edir ki, dil simvollar sistemi olduğundan ətrafdakı fiziki və sosial hadisələri əks etdirir və buna görə də ətraf mühit anlayışına həm fiziki, həm də sosial faktorları şamil etmək olar. Fiziki mühit anlayışına, ilk növbədə, coğrafi xüsusiyyətləri, məsələn, ölkənin topoqrafiyasını (su sahillərini, dərələri, düzləri, yayla və dağlıq əraziləri), iqlimi, insanların təsərrüfat fəaliyyətini əhatə edən flora və faunanı, mineral resursları aid etmək olar. Sosial mühit anlayışına isə hər bir fərdin həyat tərzini və təfəkkürünü formalaşdıran müxtəlif ictimai faktorlar aiddir [5, s.271]. Əslində, E.Sepir dil və mühit deyərkən özünün də şərh etdiyi kimi, dil və təbiət münasibətlərini analiz etmişdir. E.Sepir bu qənaətə gəlir ki, dil daşıyıcılarını

əhatə edən təbii mühit onların leksik fonduna ciddi təsir edir. Yəni iqlim, flora, fauna ilə bağlı anlayış və leksemlər dil daşıyıcılarını əhatə edən təbii mühitlə sıx bağlıdır. Onların dilinin təşəkkülünə, xüsusilə etnosun leksikonunun formalaşmasına məhz bu amillər çox ciddi təsir edə bilir. E.Sepir söz ehtiyatı zəngin olan (ingilis, fransız dilləri kimi) dillərlə söz ehtiyatı zəif olan dilləri müqayisə edir və bu nəticəyə gəlir ki, mühit amili dilin leksik fondunun təşəkkülündə mühüm rol oynayır. Beləliklə də, E.Sepir dil və ətraf mühit əlaqələrinin linqvistik izahını vermişdir. Həmin izahda dil və təbiət münasibətləri ümumu mühit aspektindən dəyərləndirilmişdir. Təsadüfi deyil ki, Alvin Fill Edvard Sepiri ekolinqvistikanın ilk nümayəndəsi adlandırır [6, s.2]. Əslində, dünya dilçiliyində geniş yayılmış Sepir-Uorf nəzəriyyəsi dilin təfəkkürə təsirini ifadə edən bir konsepsiyadır. Bu nəzəriyyəyə əsasən, düşüncəni formalaşdıran dildir.

**4.Maykl Hallideyin ekolinqvistik görüşləri.**

Funksional və semiotik dilçilik sahəsində özünəməxsus konsepsiyaları ilə tanınan ingilis alimi Maykl Hallidayın 1978-ci ildə nəşr olunan "Dil və sosial semiotika" əsərində ekolinqvistik fikirlər də irəli sürülmüşdür. Həmin əsərdə o, dilə bütöv bir sosial semiotik sistem kimi yanaşır. M.Hallidayın ekolinqvistika haqqında fikirləri daha çox sosiolinqvistik prinsiplərə əsaslanır. O yazır ki, ətraf mühit həm fiziki, həm də sosial olur və insanların rifahı ətraf mühitlə harmoniyada olmağa bağlıdır. Yəni yaxşı yaşamaq həm fiziki, həm də sosial uyğunluq tələb edir. Ətraf mühitlə bağlı tədqiqatlar məhz bu rifah halının təbiətini öyrənir. On il əvvəl 'erqonomika' ilə tanış olduq – insanların işlədiyi mühiti öyrənən və ona nəzarət edən sahə. Çoxları London Transport-un reklamını xatırlayar: "Avtobus sürücüsü nə qədər böyükdür?"- bu şüar yeni avtobusların "erqonomik prinsiplərə" uyğun dizayn edildiyini bildirirdi. O dövr üçün ətraf mühit anlayışı belə idi. Bu gün isə rifahın sosial tərəflərinə daha çox diqqət yetirilir. Heç kim avtobus sürücüsünün oturacağının önəmsiz olduğunu deməz, amma bu artıq tam hekayə deyil. Ətraf mühitin dizaynında başqa aspektlər də ən azı bu qədər önəmlidir və onları tənzimləmək daha çətindir. Məsələn, çirklənmə problemi – zibil, havanın və suyun çirklənməsi – fiziki çirklənmənin ən təhlükəli formaları belə, sosial mühitdə yaranan problemlər qədər idarə olunması çətin deyil [3, s.9]. O, dilin çirklənməsi prosesinə adekvat olaraq ekoloji çirklənmə kimi yanaşırdı.

M.Hallidey ekoloji çirklənməni sosial fenomen kimi izah edir. Onun fikrincə, məsələn, çirklənmə problemini götürək – bu, ətraf mühit dizaynının müdafiəçi tərəfidir. Zibil yığılması, havanın və suyun çirklənməsi, hətta fiziki çirklənmənin ən ölümcül formaları belə, sosial mühitdə yaranan çirklənmə qədər mürəkkəb deyil. Sosial mühitdəki çirklənməyə isə irq, mədəniyyət və sinif fərqliliyi üzündən yaranan mühakimə və düşmənçilik səbəb olur. Bu problemləri "mühəndislik üsulları ilə" həll etmək mümkün deyil. Bu sahədə ortaya çıxmış "sosial mühəndislik" anlayışı xüsusilə təhlükəlidir. Təhlükə yalnız insanların pis niyyətlə manipulyasiya olunması ilə bağlı deyil – insanlar buna qarşı diqqətlidirlər – əsas təhlükə ondan ibarətdir ki, sosial mühitin fiziki mühit kimi, söküntü və tikinti üsulları ilə formalaşdırıla biləcəyinə inanılır, sadəcə, kifayət qədər böyük və mürəkkəb planlar və maşınlar olsa kifayətdir.

Belə düşüncənin bəzi mənfi nəticələri zaman-zaman dil və təhsil sahəsində özünü göstərmişdir. Lakin sosial rifah bu üsullarla tərif edilə bilməz və əldə edilə bilməz.

Əsas məqamlar:

1. Sosial çirklənmə – irq, mədəniyyət və sinif fərqliliklərindən yaranan düşmənçilik – fiziki çirklənmədən daha çətindir.
2. Sosial mühəndislik – cəmiyyəti fiziki mühit kimi "tikib - sökmək" cəhdi – təhlükəlidir və uğursuzluq doğurur.

Sosial rifah yalnız texniki və fiziki üsullarla əldə edilə bilməz; bunun üçün insan münasibətlərinə və sosial harmoniyaya diqqət ayırmaq lazımdır [3, s.9].

Maykl Hallideyin ekolinqvistika ilə bağlı fikirlərinin tənqidi analizi göstərir ki, ekoloji fəlakətlərin başlıca səbəbi dildir. Əlbəttə, bu fikir o qədər də inandırıcı səslənmir. Əgər E.İ.Hayqen dillə cəmiyyəti vahid bir ekosistem kimi qəbul edirdisə, M.Hallidey dilin ideoloji gücünün təbiətə düzgün münasibət formalaşdırdığını bildirirdi. A. Stibbe isə ekofəlsəfənin mahiyyətini izah edirdi. E. Sepir isə mühit deyərkən, təbiətin dilə təsirini daha çox vurğulayırdı.

**Nəticə:** Beləliklə də, ekolinqvistikaya aid nəzəri fikirləri nəzərdən keçirdik. Müxtəlif alimlərin bu sahədə irəli sürdükləri elmi-nəzəri konsepsiyalar sübut edir ki, bu sahənin gələcəkdə inkişaf etdirilməsinə, bu sahədə yeni nəzəriyyələrin yaradılmasına böyük zərurət var.

**Ədəbiyyat siyahısı**

1. Нечипоренко, В.Ф. Лингвофилософские основы эколингвистики. Калуга: КГПУ, 2008. 210 с.
2. Сепир, Э. Избранные труды по языкознанию и культурологии / Сепир, Э. Москва: Прогресс, 1993. 656 с.
3. Halliday, M.A.K. Language and social Semiotic. New York: University Park Press, 1978. 265 p.
4. Haugen, E. The ecology of language. Standford: Standford University Press, 1972. 366 p.
5. Stibbe, A. Ecolinguistics. Language, ecology and the stories we live by. London and New York: By Taylor and Francis Books, 2015.
6. The Ecolinguistics Reader. Language, Ecology and Environment / Edited by Alwin Fill and Peter Mühlhausler. London and New York, Continuum, 2001. 296 p.

***Наргиз Мусаева***

***Теоретические взгляды на эколингвистику***

***Резюме***

В статье рассматриваются понятия и теоретические взгляды, посвященные лингвистической сущности новейшей лингвистической парадигмы, получившей название эколингвистики. Анализируются теоретико-методологические мнения Эйнара Инчвальда Хайенина, Майкла Халлиде, Аррана Стиббена, Эдварда Сепире по эколингвистике. Именно из этих представлений не определены характеристики когнитивных структур экологических реалий и их словесных средств выражения и специфика метафорического представления; также отсутствуют исследования по семантико-когнитивному описанию основных единиц терминологической системы, их участию в категоризации через язык и другим вопросам. Современные экологические реалии включают комплексный и междисциплинарный анализ как компоненты экологического ландшафта от систематического до междисциплинарного и исследуются с точки зрения современной когнитивной лингвистики, эколингвистики, теории дискурса и других областей. Развитие этой области в будущем открывает путь для разработки новых научных парадигм. Анализ современного состояния современных лингвистических исследований показал, что его основной характеристикой является его междисциплинарный характер и тесное взаимодействие со смежными областями знаний. Изменение направления современных научных исследований привело к появлению нового научного направления — эколингвистики. Основной целью данного направления является формирование экологического сознания, гармонизация и уравновешивание существования природы и языка.

***Ключевые слова:*** *эколингвистика, лингвистика, теоретический обзор, термин, экология, новая парадигма.*

***Nargiz Musayeva***

***Theoretical views on ecolinguistics***

***Abstract***

The article discusses the concepts and theoretical views devoted to the linguistic essence of the newest linguistic paradigm, called ecolinguistics. It analyzes the theoretical and methodological opinions of Einar Inchwald Hayenin, Michael Hallide, Arran Stibbenin, Edward

Sepire on ecolinguistics. It is from these ideas that the characteristics of cognitive structures of ecological realities and their verbal means of expression and specificity of metaphorical presentation have not been determined; research is also not available on the semantic-cognitive description of the basic units of the terminology system, their participation in categorization through language, and other issues. Current ecological realities involve complex and multidisciplinary analysis as components of the ecological landscape from systematic to multidisciplinary, and are explored in terms of contemporary cognitive linguistics, ecolinguistics, discourse theory, and other areas. The development of this field in the future paves the way for the development of new scientific paradigms. An analysis of the current state of modern linguistic studies has shown that its main characteristic is its interdisciplinary nature and its close cooperation with related fields of knowledge. The change in the direction of modern scientific research has led to the emergence of a new scientific field — ecolinguistics. The main goal of this field is the formation of ecological consciousness, harmonizing and balancing the existence of nature and language.

***Keywords:*** *ecolinguistics, linguistics, theoretical review, term, ecology, new paradigm.*

***Çapa tövsiyə edən:*** ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***fil.e.d.,dos. A.Məşədiyeva***
***fil.e.d.,dos. B.Məhərrəmli***